# YUMORİSTİK SƏHNƏLƏR

*(Əvvəli ötən sayımızda)*

Polis rəisinin otağında ikisi söhbət edir: - Bax, Mamedov, artıq mən təqaüdə gedirəm. Sən cavansan, bundan sonra rəis sən olmalısan.

- Ancaq, rəis, mənim elə də çox savadım yoxdur. Mən necə rəis işləyə bilərəm.

- Mamedov, mənim bir rəisim var idi, həmişə deyirdi: polis orqanları yeganə idarədir ki, savada yox, gücə ehtiyac var. Odur ki, ruslar demişkən "sila estğ uma ne nado», - yəni güc varsa, ağıla ehtiyac yoxdur.

- Bilmirəm, rəis, birinci dəfədir eşidirəm.

- Öyrən, Mamedov, nə qədər sağam bir konspekt götür yaz. Sonra gec olar.

Bu vaxt bir xarici vətəndaş gətirirlər:

- Rəis, bu xarici vətəndaşdır, vizasının vaxtı qurtarıb.

- Mamedov, bir protokol yaz.

- Yazım da, a kişi adın, familiyan, atanın adı nədir? Hansı ölkənin vətəndaşısan?

- Ağa mənim adım, Dərvişdir, namixanəvadəm İydəli Necad-purdur, atamın adı Əjdərdir. Özüm İslam Respublikasının sakiniyəm. Vizamın vaxtını uzatmaq ağlıma belə gəlməyib. Mən bisavad, avam adamam. Nə deyirsiniz edim. Təki buraxın gedim külfətimin yanına.

- Təvəllüd tarixini de!

- 1352-ci il.

- İndi 2009-cu ildir. Deməli, 2009-dan 1352 çıxanda, düz 657 yaşı var. Rəis, bunların ölkəsində nə çox yaşayırlar, düz 657 yaşı var.

- A kişi, sənin bu qədər yaşın var? - deyə, rəis soruşur.

- Yox ağa, mənim 36 yaşım var.

Rəislə polis nəfəri bir-birinin üzünə baxır:

- Rəis, mənə çatdı, bunlar düz altı yüz il bizdən geri qalıblar. Altı yüz il bundan qabaq biz də belə olmuşuq. Ərəblər gəlib bizi islam edib, dövlətimiz də islam dövləti olub. Ölkəni molla, şeyx idarə edib. İndi islam gəlib bunlara çatıb.

- Tamamilə düzdür, Mamedov. Mən də elə fikirləşirəm. Bunların görəcəyi günlər hələ qabaqdadır. Burjua inqilabı, sosialist inqilab. Kommunistlərin kommunizm xülyaları, sonra müstəqillik. Yenə müharibələr. Buna lap yazığım gəldi. Bunları protokola yaz, burax getsin. Yazığın görəcəyi günlər hələ qabaqdadır.

* * *

Təhsil nazirinin qəbul otağında mətbuat işçiləri: - Biz gəlmişik künikulyum haqqında nazirimizdən soruşaq. Görək onu nə vaxt keçirək.

- Əyləşin, bu saat özündən soruşum, sonra.

Nazirin kabinetinə daxil olur: - Yoldaş nazir, mətbuatdır. Künikulyum haqqında soruşmaq istəyirlər. deyirlər onu nə vaxt keçirəcəyik.

- Ku.. kun .. yuk.. mu , dilim də tutmur, nə deməkdir?

- Bilmirəm, hörmətli nazir. Mətbuata nə deyim.

- De ki, o sözü hələ dilimiz tutmur, əvvəl onu deməyi öyrənərik, sonra baxarıq, nə olan şeydir. Bəyənsək, keçirərik.

Qəbul otağına qayıdır:

- Künikulyum sözünü nazirimizin dili tutmur, dili tutanda həyata keçirəcək. Gedin, işimiz çoxdur, mane olmayın!

* * *

Quşlar satılan mağazada birisi satıcıya yanaşır:

- Bağışlayın bu nə quşdur?

- Bülbüldür, yaxşı mahnılar oxuyur.

- Onun mahnılarına kim qulaq asır.

- Bütün dünya. Bu quş öz oxumağı ilə dünyada məşhurdur.

- Deməli bütün dünya onun oxuduğu mahnıları bəyənir. Bəs hansı mahnını oxuyur.

- Ti-ti-ti. Fi-ti-fi-ti-ti (satıcı müxtəlif fit səsləri çıxarır)

- Elə bu? Başqa mahnılar bilmir?

- Elə bu bəsdir də, daha nə oxumalıdır?! - (əsəbi halda satıcının yaxasından yapışır) Ayə, mən muğam oxuyuram, sazda aşıq mahnısı oxuyuram. Estrada, rep, meyxana, nə desən oxuyuram heç şəhərdə məşhur deyiləm. Hamı mənə "bozbaş" müğənni deyir. Xırda bir quş fit verir bütün dünya onu tanıyır! Bu nədir əəə... niyə mənə "bozbaş" deyirsiniz. Niyə mənə əməkdar artist adı vermirsiniz. Bir quşu dünyada məşhurlaşdırmırsınız!?

- Özünə gəl, məni burax!

* * *

Birisi gəlib - gedənlərə Azərbaycan dilində müraciət edir. Onu heç kəs anlamır:

- Bağışlayın?

- Ekc yus mi!

- Bağışlayın?

- Bardon müsyo!

- Bağışlayın!

- İzvinite mne ne koqda.

Əlacsız qalan adam xadiməyə yaxınlaşır:

- Sizdə bir tərcüməçi yoxdur, mənim sözümü desin. Mənə də bunların nə dediyini başa salsın?

- Biri vardı, düşmənin sözünü dediyi kimi tərcümə etdi. Şefin qəzəbinə gəldi... Eh, sonra qır qazanında yandırdılar.

- Tərcüməçilərlə belə rəftar eləmək olmaz axı! Nə böyük insafsızlıq, qəddarlıq!

- Nə etmək olar. Nəyimə lazım, mən bilmirəm. Mən belə işlərə qarışmaram, nəyimə lazım. Yaxşısı budur süpürgəçi olum. Tərcüməçilikdən əl çəkmişəm. Sən bilərsən... qır qazanı... yoxsa süpürgə...

* * *

Əlində qanlı bıçaq birisi həkimin qəbuluna girir. Həkim qarşısındakı adamın vahiməsindən qorxuya düşüb əsməyə başlayır.

- Həkim, de görüm, mən sağlamam, ya xəstə?

- .... aaa... ooo... aaa...

- Nə dedin, xəstəyəm!?

- ..aaa..

- Mən sağlamam, eləmi?

- Bə-bə-bə.. bəli! Sən sağlamsan!

- Onda qol çək, məni işə götürsünlər.

- Ya-ya-ya..x..şı... Buyur, çəkdim.

- (İçəriyə aşpaz qadın girir) Axmağın biri axmaq. Bıçağı niyə götürmüşsən? - deyə, onun əlindən qanlı bıçağı alır. - Bayaqdan əti kəsməyə bıçaq tapmırıq. Xəstələrə yemək hazırlamalıyıq.

- Bağışla, yadımdan çıxıb, əlimdə qalıb. Al, bu da sizin bıçağınız. (bıçağı aşpaza verir)

- Səndən qəssab çıxmaz. Bizə sənin kimi axmaq qəssab lazım deyil, gedə bilərsən.

- Mən tam sağlamam. Budur həkim də arayışıma qol çəkdi. (onlar çıxır və həkim onların dalınca baxıb başını tutub, dəsmalı ilə alnının tərini silir).

***(Davamı var)***

